Xuraman Vəfa

## Məni məndən soruş

Dərdi hər yetənə söyləmək olmur,
Söyləsən də kimsə dərk edən deyil.
Örtülü kitabdır sinədə ürək,
Məni məndən soruş, özgədən deyil.

Bu qədər sınağa çəkib sınama,
Arxamca vəfasız deyib qınama,
Kim nə söyləsə də ona inanma,
Məni məndən soruş, özgədən deyil.

Batdım gənc yaşımda qəmə, nisgilə,
Kimim var gözümün yaşını silə?!
Yadlar yadın dərdin gətirməz dilə,
Məni məndən soruş, özgədən deyil.

Hər yerdə göründüm xoşbəxtlər kimi,
Heç vaxt qınamadım öz taleyimi.
Göstərə bilmirəm sınıq qəlbimi,
Məni məndən soruş, özgədən deyil.

Könül rübabını hər mizrab çalmaz,
Tale sahib çıxsa, ümid qırılmaz.
Dərdimi mənimtək heç kim anlatmaz,
Məni məndən soruş, özgədən deyil.

Nə tale başıma bir sığal çəkdi,
Nə də ümidimə bir yuva tikdi.
Hər gün arzularım yola göz dikdi,
Məni məndən soruş, özgədən deyil.

O ötən günləri özləyirsənsə,
Qəlbində eşqimi gəzdirirsənsə,
Halımı soruşmaq istəyirsənsə,
Məni məndən soruş, özgədən deyil.

## İstəyən də... istəməyən də....

Taleyin uğursuz dolaylarından
İstəyən də keçir, istəməyən də.
Qismətə süzülən acı zəhəri
İstəyən də içir, istəməyən də.

Heç kim itirməsin can sirdaşını,
Gözlər axıtmasın hicran yaşını.
Ya baha, ya ucuz üzük qaşını
İstəyən də seçir, istəməyən də.

Verir fərmanını hər gün, hər saat,
Bizlər piyadayıq, dövran köhlən at.
Taxıl zəmisinə bənzəyir həyat,
İstəyən də biçir, istəməyən də...

## İnam azalıb

Son günlər etibar, inam azalıb,
Gör necə dəyişib üzü dövranın?!
Tapdanıb insanlıq, ölüb mərhəmət,
Görəsən hardadır gözü dövranın?!

İştahlar baş kəsir qılıncdan betər,
Yolun azanlara deyən yox, yetər.
Hədəfsiz ovlardan güllə yan ötər,
Yaman günə qalıb üzü dövranın.

Kimi bəxtdən küsüb, kimisi yardan,
Kimi bərk yapışıb dövlətdən, vardan.
Gör kimlər dəm vurur namusdan, ardan,
Deyəsən qurtarıb sözü dövranın.

Gah qırğın törədir, gah evlər yıxır,
Fağırın, yazığın canını yaxır.
Kimsəsiz olana ögey tək baxır,
Bilinmir əyrisi, düzü dövranın.?

Qocaman dünyanı taxtından, salıb,
Şahların hökmünü əlindən alıb,
Dağıla-dağıla bir parça qalıb,
Dünyanı yandırır közü dövranın.

## Vətən

El-aləm məst olub gözəlliyindən,
Bütün cahan səni deyir, ey Vətən!
Dillər əzbəridir şöhrətin, şanın,
Düşmənin sənə baş əyir, ey Vətən!

Müjdələr gətirir gələn səhərin,
Ağlı başdan alır ləl-cəvahirin.
Naxçıvan yurdudur Nuh Peyğənbərin,
Ellər ziyarətə gəlir, ey Vətən!

Bayramın bayrama qarışıb, sevin,
Qonaqlarla dolub, boşalır evin.
Bağışlama daha namərdin səhvin,
Düşmənlər məhv olub, ölür, ey Vətən!

Astara cənuba açıb qucağın,
Qəbələ Balakən cüyür oylağın,
Mil-Muğan sərvətin, qızıl torpağın,
Təbiət acını silir, ey Vətən!

Tarixdə yeri var, qədim Şabranın,
Quba yurdu olub, Fətəli xanın.
Sehrinə bir sehir çatmaz Nabranın,
Bunu bütün aləm bilir, ey Vətən!

Ucalıb göylərə Dövlət Bayrağın,
Yayılıb ellərə səsin, sorağın.
Türkdür yaxın dostun, arxan, dayağın,
Dünya görüşünə gəlir, ey Vətən!

## Solmasın!

Sevgilim, salam ver bağa, çəmənə,
Nəzər sal laləyə, bax, yasəmənə!
Sonra da elə bir gül göstər mənə,
Bu gün açılanda, sabah solmasın.

Ağ günə həmdəməm, bahara sirdaş,
Ərzi bürüməsin qorxu, iğtişaş.
Deyirəm məhəbbət göylərində kaş
Heç vaxt gün əyilib, qaş qaralmasın.

Yaşayaq həyatı biz duya-duya,
Xəyalən yol gedək ulduza, aya.
Görmək istəyirəm elə bir dünya,
Orda ayrılıq, yas, matəm olmasın.

Sevgilim, səsinə səs verdim sənin,
Özümüz ikiyik, arzumuz min-min.
Çıxaq axırına müharibənin,
Dünyada körpələr yetim qalmasın!

ədalət.-2017.-7 mart.-S.4.